

**Türkiyə Cümhuriyyətinin qurucusu**
**Mustafa Kamal Paşa Atatürk**



**Azərbaycan xalqının ümummilli lideri,**
**Atatürk Mərkəzinin qurucusu**
**Heydər Əliyev**



**Azərbaycan Respublikasının Prezidenti,**
**Atatürk Mərkəzinin fəxri sədri**
**İlham Əliyev**

Azərbaycanda Atatürk Mərkəzi

**Osman Musayev**
**Dəyanət Osmanlı**
**Altay Cəfərov**

# ATATÜRK MƏRKƏZİ

(sorğu-məlumat kitabı)

**ÇAŞIOĞLU**
**2008**

***Elmi redaktor:***
**prof. dr. Nizami Cəfərov**

**Osman Musayev**
**Dəyanət Osmanlı**
**Altay Cəfərov**

Atatürk Mərkəzi (soraq-məlumat kitabı). AzAtaM, Bakı, Çaşıoğlu 2008. - 80 s

*Kitabda Azərbaycanda Atatürk Mərkəzinin yaradılması, inzibati binasının açılış mərasimi, fəaliyyəti, strukturu və nəşrləri barədə ətraflı məlumatlar verilmişdir.*

A $\frac{5001000000-479}{082-08}$

© "Çaşıoğlu" nəşriyyatı, 2008

# Azərbaycanda Atatürk Mərkəzi

***Heydər Əliyevin Atatürkə və Türk dünyasına böyük ehtiramı***

Ümummilli lider Heydər Əliyevin düşüncəsində türk dünyasının görkəmli dövlət xadimlərinə, unudulmaz şəxsiyyətlərə, mütəfəkkirlərə xüsusi bir ehtiram var idi. O, böyük Atatürkün şəxsiyyətinə və irsinə, xidmətlərinə də yüksək sayğılar bəsləyirdi. Çağdaş müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün dövlətçilik təcrübəsini Azərbaycanın milli dövlət quruculuğu prosesində daim xatırlamışdır. Atatürk Mərkəzini yaratmaq fikri də bütün türklərin mütəfəkkir insanına zamanında gördüyü işlərə görə cəmiyyətimizdə minnətdarlıq hissinin ifadəsidir. Türk dövlətlərində bu tipli mərkəzlərin yaradılması ideyası çoxdan mövcud olsa da, ilkin olaraq dövlət qurumu kimi Azərbaycanda gerçəkləşmişdir.

Ümummilli lider Heydər Əliyev Atatürkə, Türkiyəyə və türk dünyasına ehtiramının əlaməti olaraq, 9 mart 2001-ci il tarixli sərəncamla qardaş Türkiyə ilə tarixi, milli-mənəvi, mədəni bağlılığımızın inkişafı üçün mühüm əhəmiyyət daşıyan bir təsisat - Azərbaycanda

Atatürk Mərkəzini yaratmışdır. Mərkəzin fəxri sədri Azərbaycan Respublikasının Prezidentidir. Prezidentin sözügedən sərəncamında və mərkəzin əsasnaməsində bu birmənalı şəkildə vurğulanır. Atatürk Mərkəzin yaradılması zərurəti konkretdir. Bu mənada, sərəncamda qeyd olunduğu kimi, təsisat «Türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün türk tarixində tutduğu mühüm yeri nəzərə alaraq, Atatürk irsinin, ümumiyyətlə, türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədi» daşıyır.

Mərkəzin fəaliyyəti ilə tanışlıqdan aydın olur ki, qurum ictimai fikri türk dünyası və Atatürklə bağlı tarixi hadisələrə, tədqiqata, yeni münasibətlərə yenidən yönəltməyi istiqamət olaraq seçmişdir. Burada türk dünyasının tarixi, mədəniyyəti və bu sferaya daxil ola biləcək digər məsələlər araşdırılır və nəşr olunur.

Ulu öndər 4 iyul, 2001-ci il tarixli digər bir sərəncamla görkəmli türkoloq alim, tədqiqatçı, prof. dr. Nizami Cəfərovu bu mərkəzə müdir təyin etmişdir. O vaxtdan etibarən mərkəzdə görkəmli türkolq-alimin rəhbərliyi ilə bir sıra ürəkaçan işlər görülmüşdür.

Atatürk Mərkəzinin müdiri sıradan bir elm adamı, millət vəkili deyil, o, Azərbaycanda və Türk dünyasında

kifayət qədər nüfuz qazanmış türkoloq-alim, ictimai xadimdir. Onun elmi araşdırmaları və kitabları dünya türkoloqları, tədqiqatçılar üçün impulsveriçi örnək kimi həmişə diqqət mərkəzindədir. Ulu öndər Heydər Əliyev rəsmi görüşlərin birində Atatürk Mərkəzinin yaradılması münasibətilə demişdi: «Çox məmnunam ki, mənim təşəbbüsümlə Azərbaycanda Atatürk Mərkəzi artıq fəaliyyət göstərməkdədir. O zamanlar mənə Beynəlxalq Atatürk Sülh Mükafatı verilərkən düşündüm ki, belə bir qurumu yaratmaq gərəkdir və buna da böyük ehtiyac varmış. Mən çox böyük bir professoru o mərkəzə başqan təyin etdim. O, bizim parlamentin millət vəkilidir. Onlara çox gözəl və tarixi bir bina verdim».

Və belə ünlü elm xadiminin yeni quruma rəhbər təyin edilməsi həm də onu göstərirdi ki, Heydər Əliyev türk xalqlarının elmi, mədəni tarixinin, türk dünyası ölkələrinin əzəli, müasir bağlılıqlarının öyrənilməsi məsələsində ciddi dayanmışdı və mərkəzin fəalliyyətindən bu sahədə çox nəticə gözləyirdi.

Mərkəzdə türk dünyasının tarixi, mədəniyyəti və bu sferaya daxil ola biləcək digər məsələləri araşdırmaq da nəzərdə tutulmuşdur. Bu elm, mədəniyyət ocağında ictimai fikri türk dünyası və Atatürklə bağlı tarixi hadisələrə, araşdırmalara, gəlişən münasibətlərə yenidən

yönəltmək də bir istiqamət olaraq seçilmişdir.

Eynilə Azərbaycanda Atatürkə olan ehtiram kimi, Türkiyədə də türk dünyasının çağdaş lideri Heydər Əliyev şəxsiyyətinə böyük sevgilər hər zaman duyulur. Bu qarşılıqlı münasibətlər milli azadlıq mübarizləri, dövlət qurucuları Atatürk və Heydər Əliyev ideyalarına xalq, dövlət səviyyəsində məhəbbətin bütün türk dünyası üçün örnək təzahürüdür.

Bu mənada, Atatürk irsini, türk dünyasındakı çağdaş prosesləri öyrənən belə bir mərkəzin yaradılması qərarı Heydər Əliyevin yalnız Atatürk Sülh Mükafatını alarkən deyil, ondan əvvəl və sonra irəli sürdüyü uyğun ideyaların nəticəsi olaraq meydana çıxmışdı. Türk dünyasının müasir lideri Heydər Əliyevin yaratdığı və ilk fəxri sədri də özü olduğu bu mərkəz indi onun atatürkçülük barədə fikir və mülahizələrini əsas ideya-istiqamət kimi seçərək, öz məqsədləri çərçivəsində uğurla fəaliyyət göstərməkdədir.

Türk dövlətlərində bu tipli mərkəzlərin yaradılması ideyası çoxdan vardır. Ancaq müxtəlif zamanlarda ictimai əsaslarla belə təşkilatlar yaradılsa da, onların fəaliyyəti hiss olunmur. Türkiyədə böyük təcrübəsi olan bu cür mərkəzlər də çoxdur. Ancaq Azərbaycandakı mərkəz o təcrübələrin heç birisini birbaşa mənimsəmək yolu ilə getmir. Onun öz prinsipləri var, fəaliyyətində

Azərbaycan dövlətinin türk dünyasına yönəlik siyasətinin istiqamətləri əsas götürülmüşdür.

## İntellektual elm, mədəniyyət təşkilatı

Azərbaycanda Atatürk Mərkəzi elm, mədəniyyət təşkilatı, müəyyən qədər də akademik bir təsisat deməkdir.

Mərkəzin strukturu elədir ki, burada həyata keçirilən vəzifələr xüsusi bir əhəmiyyətə malikdir və ümdəsi Türk dünyasının müxtəlif siyasi, ictimai, mədəni təşkilatları ilə əlaqələri daha da gücləndirmək, müasir türk dünyasında gedən prosesləri öyrənmək, XX əsrin əvvəllərində və sonunda Atatürkün və Heydər Əliyevin türk dünyasının birliyi uğrunda istimai-siyasi, milli mübarizə tarixini dərindən araşdırmaq, təbliğ etməkdir. Ona görə də Türk dünyasının bu tarixi liderlərinin dövlət qurmaq uğrunda apardıqdarı  mübarizələr mərhələlərlə tədqiqat obyektinə çevrilir, izahı verilir, yayınlanır.

Bir sözlə, görülmüş işlər də, məqsədlər və perspektivə  planlaşdırılan məsələlər də çoxdur. Burada kollektivin hər bir üzvü çalışır ki, Atatürk Mərkəzi Azərbaycanda bir intellektual institut kimi daha da möhkəmlənsin.

Mərkəzin əsasnaməsi 13 avqust 2001-ci il tarixdə qəbul olunmuşdur. Və burada əsas vəzifə və funksiyalar bir neçə bənddə konkret təsbitini tapmışdır. Həmin funksiyalar bunlardır:

Mustafa Kamal Atatürk irsini tədqiq və təbliğ etmək məqsədilə bu işlə məşğul ola bilən elm və mədəniyyət xadimlərini müvafiq mövzuların işlənməsinə cəlb edir və onların elmi fəaliyyətinə lazımi şərait yaradır;

Atatürk irsinin elm, təhsil, mədəniyyət və s. sahələrdə qorunması və inkşaf etdirilməsini təmin etmək üçün tədqiqatlar aparır;

Türkdilli xalqların ictimai fikir tarixində və mədəni inkşafında Atatürk irsinin rolunun müəyyənləşdirilməsi üçün tədbirlər həyata keçirir;

Aparılan tədqiqatların nəticələrini yaymaq və təbliğ etmək məqsədilə elmi əsərlər, məcmuələr və s. nəşr edir;

Atatürk şəxsiyyyəti və irsinin tədqiqinə həsr olunmuş görkəmli əsərlərə görə mükafatlar verir;

Atatürk irsinə aid sənədlərin vahid arxivini və fondunu yaradır;

Türkdilli dövlətlərin həyatının müxtəlif sahələrinə həsr edilmiş tədbirlər keçirir;

Respublika daxilində və respublikadan kənarda türkdilli dövlətlərin elmi və mədəniyyəti ilə əlaqədar

tədqiqatlar aparan digər qurumlarla münasibət qurur və onların fəaliyyəti ilə öz fəaliyyətini əlaqələndirmək üçün konfrans və müşavirələr keçirir;

Türkdilli dövlətlərin və digər xarici dövlətlərin müvafiq qurumları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;

Müvafiq beynəlxalq tədbirlərdə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasını təmsil edir və belə tədbirlərin Azərbaycan Respublikasında keçirilməsini təmin edir.

Atatürk Mərkəzində Dil, ədəbiyyat və mədəniyyət, İctimai-siyasi və Beynəlxalq münasibətlər şöbələri və Redaksiya fəaliyyət göstərir. Hər bir şöbənin funksiyasına görə, mərkəzin əhatə dairəsinə əsasən informasiyalar, analitik informasiyalar çap etmək, dil, ədəbiyyat, tarix, siyasi-ideoloji və digər uyğun məsələlər daxildir. Ümumi təfsiri belə vermək mümkündür:

Dil, ədəbiyyat və mədəniyyət şöbəsi Atatürk irsini, Türkiyə Cümhuriyyətinin, ümumən türk xalqlarının dil, ədəbiyyat və mədəniyyətinin, elm və təhsilinin araşdırılmasını təmin edir.

İctimai-siyasi şöbə Türkiyə Cümhuriyyəti və türk-xalqlarının tarixi, içtimai fikri, dövlətçilik ənənələri və ictimai-siyasi həyatını öyənir. Türksoylu xalqların ictimai fikir tarixində Atatürk irsinin rolunun müəyyənləş-

dirilməsi ilə bağlı tədqiqatlar aparır və bunu təbliğ edir.

Beynəlxalq əlaqələr şöbəsi Atatürkün Türkiyənin və türksoylu xalqların tarixindəki yerinin öyrənilməsi və təbliğ olunması, türk respublikaları, muxtar respublikaları və topluluqlarında fəaliyyət göstərən analoji qurumlarla mərkəzin qarşılıqlı faydalı əməkdaşlığının qurulması kimi məsələləri əhatə edir.

Redaksiya isə elmi əməkdaşları tərəfindən hazırlanmış kitabların, mərkəzin rüblük orqanı olan «Bülleten»in nəşrini təşkil etmək və yaymaq, mərkəzin təbliği ilə əlaqədar informasiyaların toplanması və sistemləşdirilməsi işi ilə məşğul olur, mətbuat xidmətinin funksiyalarını həyata keçirir.

Mərkəzdə şöbə və əməkdaşların elmi, ictimai fəaliyyəti elə qurulmuşdur ki, burada «elmimiz də dövlətçiliyimizə xidmət etməlidir» tezisi öncül düşüncəyə çevrilmişdir. Prof. dr. Nizami Cəfərovun təbirincə desək, mərkəzimiz bir ideya, fikir müşaviri kimi dövlətçiliyimizə lazım olan köməyi göstərməlidir və göstərir də.

Məlum həqiqətdir ki, Azərbaycanın müasir dövlətçilik ideologiyasını ümummilli lider Heydər Əliyev müəyyənləşdirmişdir və indi bu ideologiya Prezident İlham Əliyev tərəfindən yeni dinamika ilə davam

etdirilir. Müasir dünya daha genişmiqyaslı, ictimai-siyasi proseslər daha çox dəyişkəndir. Dünyada ideyalar, siyasi proseslər, məqsədlər, münasibətlər də müxtəlifdir. Bu baxımdan, mənbəyi Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideologiyası olan elmi-ideoloji mərkəz kimi fəaliyyətimiz Türkçülük, Atatürkçülük, Azərbaycançılıq prinsipləri miqyasında geniş (həm də konkret) əhatə dairəsinə malikdir.

# Bakıda Atatürkün evi

Atatürk Mərkəzinin yerləşdiyi bina qədim tikilidir və Atatürkün adını əbədiləşdirir. Tarixin, talenin işidir ümummilli lider Heydər Əliyev Ataktürk Mərkəzini yaratdı, prinsiplərini müəyyənləşdirdi, açılış mərasimini isə onun varisi İlham Əliyev gerçəkləşdirdi. Bu, həm də o deməkdir ki, Atatürk Mərkəzinin – «Atatürkün evi»nin Bakıda yaradılması və fəaliyyətə başlaması bu iki böyük şəxsiyyətin adı ilə bağlıdır.

Azərbaycanda Atatürk Mərkəzinin inzibati binasının təntənəli açılış mərasimi 2004-cü il aprelin 10-da olmuşdur. Ölkəmizin həyatında əlamətdar hadisə kimi yadda qalan tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin və Azərbaycanın dövlət, hökumət nümayəndələri, xarici qonaqlar, türkdilli ölkələrin Bakıdakı səfirləri iştirak etmişlər.

Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə təntənəli açılış mərasimi göstərdi ki, mərkəzin yaradılması ideyası, fəaliyyəti türkçülük amallarına nəzərən Türk dünyasının birliyi istiqamətində atılmış mühüm addımdır.

Azərbaycan Prezidenti İlham Əliyev Atatürkə sayğılarını ifadə edərkən müasir Türkiyəni onun tarixi əsəri adlandırmışdır: «Mustafa Kamal Atatürk Türk dünyası-

nın ən görkəmli şəxsiyyətlərindən biridir. Böyük dövlət xadimi, siyasi xadimdir. Onun Türkiyə qarşısında, bütün türk dünyası qarşısında misilsiz xidmətləri olmuşdur. Ən böyük xidməti isə Türkiyə Cumhuriyyətini yaratmasıdır. Müasir Türkiyə Mustafa Kamal Atatürkün əsəridir. Necə ki, müasir Azərbaycan Heydər Əliyevin əsəridir».

Ölkələrimiz arasındakı siyasi, iqtisadi, mədəni əlaqələrin bugünkü səviyyəsi deməyə əsas verir ki, Heydər Əliyev Atatürkün tarixi, mədəni irsinin öyrənilməsinin Azərbaycanda dövlət quruculuğu üçün əhəmiyyətini duyaraq ölkəmizdə belə bir mərkəzin qurulması ideyasını milli təəssübkeşlik hissindən çıxış edərək irəli sürmüşdür. İdeya gerçəkləşənə qədər də milli öndər müxtəlif məqamlarda Atatürk haqqında özünün çox maraqlı, dəqiq və aydın mülahizələrini söyləmişdir. Bu, Azərbaycanın milli dövlətçilik tarixində artıq bərkimiş ana ideologiyada türkoloji mühitin meydanının genişlənməsi kimi nəzərdə saxlanılmalıdır.

Mərkəzin açılışında Azərbaycan Prezidenti İlham Əliyev türk dünyasının dövlətləri arasında əlaqələrin inkişafı, ölkəmizdə Atatürk təcrübəsinin öyrənilməsinin zəruriliyi barədə fikirlərini söyləmişdir. Mərkəzə qayğı məsələsinə gəldikdə isə, ümumən türk xalqlarının daha

da yaxınlaşması siyasətində bu gün Heydər Əliyevsizlik duyğusu olsa da, onun ideyalarının öz axarında həyata keçirilməsi Prezident İlham Əliyevin həmişə diqqətində olacaq bir xəttdir. Bu mənada, dövlətimizin başçısının türkdilli ölkələrə – Qazaxıstana, Özbəkistana, Türkiyəyə xüsusi maraq doğuran səfərləri, əhatəli görüşləri Azərbaycanın türk dünyasında yerinin, nüfuzunun gələcəkdə də möhkəmlənməsi ilə bağlı çox böyük nəticələr verir. Hadisələr və çağdaş ideologiya diqtə edir ki, müasir türk dünyasında gedən proseslər də qarşılıqlı surətdə öyrənilməlidir. Yəni millət öz öndərlərinin mübarizə təcrübəsindən bəhrələnməlidir. Çünki «bir millət, iki dövlət»in sevinci də, ağrıları da, mübarizə və yaşam yolları da eynidir. Xalqlarımız, dövlətlərimiz bir-birinin dayağıdır. Prezident İlham Əliyevin dediyi kimi, «Azərbaycan müstəqil yaşayandan sonra biz hər zaman Türkiyənin dəstəyini hiss etmişik və ümummilli liderimz Heydər Əliyevin bir kəlamını həmişə yadda saxlayırıq: Biz bir millət, iki dövlətik. Türkiyə harada, Azərbaycan orada, Azərbaycan harada, Türkiyə orada olmalıdır. Əminəm ki, bundan sonra belə olacaqdır. Bilirsiniz ki, Heydər Əliyev, eyni zamanda, Atatürk Beynəlxalq Sülh Mükafatı ilə təltif edilmişdir. Mən o mərasimi çox yaxşı xatırlayıram. O, orada böyük bir nitq söylədi və qeyd etdi

ki, müxtəlif dövrlərdə çoxlu ordenlər, medallar, mükafatlar almışdır. Amma dedi ki, mənim üçün bu mükafat indiyə qədər aldığım bütün mükafatlardan qiymətlidir, doğmadır və əzizdir. Bu da təbiidir. Çünki Heydər Əliyev Atatürkün mədəni, tarixi irsinə həmişə sadiq olan bir şəxsiyyət idi və bugünkü Azərbaycan məhz bu yol ilə gedir».

Ümumtürk məkanındakı çağdaş münasibətlərdən belə nəticə çıxarmaq daha düzgün olar ki, Prezident İlham Əliyevin dövlətçilik düşüncəsində türk dünyasının, xalqlarımızın hərtərəfli əlaqələrində, həmrəyliyində Atatürkün və Heydər Əliyevin təcrübələri əsasında zənginliyi təmin etmək missiyası da vardır. Və məhz bu xüsusiyyətə görə Azərbaycan Prezidenti siyasi fəaliyyəti ilə türk dünyasının birliyi, sıx əməkdaşlığı uğrunda müqəddəs ideallara xidmət edir. Bu mənada, Prezidentimizin türk dünyasına, Qazaxıstana, Özbəkistana və Türkiyəyə çoxsaylı səfərləri, türkdilli dövlətlərin Azərbaycanın öndərliyi ilə həyata keçirilən transmilli layihələrdə iştiraka cəlb edilməsi məsələləri tam dolğunluğu, sistemliliyi ilə cəmiyyətin içində xüsusi maraq dairəsi yaradır.

Türk dövlətləri arasındakı münasibətlər zəngin, çoxçeşidlidir. Bunlar iqtisadi və mədəni şəkildə də təzahür edə bilər. Çox zaman türkdilli xalqların görü-

şündə müxtəlif respublikaların başçıları çəkinərək siyasi-ideoloji məsələləri yox, mədəni məsələlərin müzakirəsini təklif etmişlər. Amma Heydər Əliyevin düşüncəsinə görə, türk xalqları arasındakı əlaqələr təkcə mədəni, iqtisadi məsələləri deyil, həm də ictimai-siyasi məsələləri əhatə etməlidir. Bu düşüncəni Prezident İlham Əliyev öz siyasətinin prioritetinə çevirmişdir.

Cəmiyyətin intellektual, ziyalı hissəsi dövlətimizin siyasətini, müstəqillik və inkişaf uğrunda mübarizəsini, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ənənələrini təbliğ etmək, Azərbaycanın beynəlxalq aləmdə, eləcə də türk dünyasında yerini müəyyənləşdirmək yönümündə rəhbərinə öz köməyini göstərməlidir. Çünki dünyanın problemləri getdikcə qloballaşır, mədəniyyətlər bir-birinə inteqrasiya olunur, bununla yanaşı, bütün sahələrdə rəqabətlər də artır.

Müasir siyasət onu öyrədir ki, biz bu proseslərdə dünya birliyinin üzvü kimi, Azərbaycanın təcrübəsinə uyğun olaraq iştirak etməliyik. Atatürk Mərkəzi də bir elm və mədəniyyət ocağı olaraq Azərbaycan dövlətinin rəhbərinin Türk dünyasının birliyinə, inkişafına yönəlik siyasətinin həyata keçirilməsində Heydər Əliyev ideyalarına daim sadiqlik nümayiş etdirir. Bu baxımdan, AMEA-nın müxbir üzvü, Atatürk Mərkəzinin müdiri,

millət vəkili Nizami Cəfərov açılış mərasimində rəhbərlik etdiyi qurumun fəaliyyətinin nə qədər məsuliyyət tələb etdiyini önə çəkərək demişdir: «Atatürkü öyrənmək yalnız türk dünyasının, ümumən dünyanın dahi siyasi xadimlərindən birinin tarixi xidmətlərini şükranlıqla xatırlamaq ehtiyacının nəticəsi deyil, eyni zamanda, müstəqil dövlət quran türkdilli ölkələr üçün böyük siyasi ideoloji təcrübə verir.

Atatürk Mərkəzinin açılması Azərbaycan dövlətinin qurucusunun çox böyük arzularından biri idi. Amma biz əsas bu işi görəcəyik ki, bu arzulara sadiq olacağıq və bizim böyük rəhbərimiz, milli liderimiz necə buyurmuşsa, onu yerinə yetirməyə çalışağcağıq».

Mərasimdə iştirak edən Türkiyənin o vaxtkı dövlət naziri Bəşir Atalay da öz çıxışında belə bir mərkəzin yaradılmasını Heydər Əliyevin Atatürkə, Türkiyəyə, ümumən Türk dünyasına doğma münasibətinin ifadəsi olduğunu vurğulamış, qurumun Azərbaycan və Türkiyə xalqları arsında dostluğu, qardaşlığı daha da möhkəmləndirən bir körpü rolunu oynayacağını bildirmişdir: «Atatürk Mərkəzi Azərbaycan və Türkiyə xalqları arasındakı köklü qardaşlıq tellərinin çox gözəl bir nümunəsidir və inanıram ki, bu, aramızda yeni bir körpü olacaqdır. Onun Atatürkün düşüncə sisteminin Azərbay-

canda və türk dünyasında daha dərindən anlaşılmasına da xidmət göstərəcəyinə inanıram».

Atatürk Yüksək Qurumunun başqanı Sadıq Turalın çıxışında da ulu öndər Heydər Əiyevin türkçülüyə böyük xidmətləri şükranlıqla xatırlanmış, mərkəzin yaradılması qərarını Prezident İlham Əliyevin şəxsində bütün türklərə böyük əmanət adlandırılmışdır: «Azərbaycanın mərhum prezidenti Atatürk irsini gözəl bilən, təbliğ edən ən dəyərli dövlət adamı idi. Onun Nizami Cəfərov kimi bir alimi bu mərkəzə müdir təyin etməsi, bu binanı seçməsi və cənab İlham Əliyevə belə bir böyük əmanət verməsi bizi çox sevindirir. Biz onu rəhmət və minnətdarlıqla anırıq. Atatürk Mərkəzi sadəcə, azərbaycanlıların deyil, hamımızındır».

Atatürk Mərkəzinin rəhbərinin düşüncəsinə görə, daha bir mühüm vəzifə Azərbaycanda müstəqil dövlət quruculuğu prosesini Türkiyə təcrübəsi ilə müqayisəli öyrənməkdir. Və bu bir devizdir – Tarix nümunə, təcrübə götürməkdən ötrüdür.

# Atatürk irsi, Türk dünyasının tarixi və mədəniyyəti yayınlarda

2001-ci ildən bu yana, əsasnaməsi təsdiq olunduqdan sonra mərkəz kifayət qədər məhsuldar fəaliyyətə başladı. Bu məhsuldarlığın miqyasını xarakterizə edən, cəmiyyətə göstərən tədbirlər, nəşrlər böyük bir ədəbiyyat siyahısından ibarətdir. Hazırda mərkəz Atatürk, atatürkçülük, türk xalqlarının ədəbiyyat və mədəniyyət nümunələrinin araşdırılması və yayınlanması işilə, keçirdiyi elmi konfrans və simpoziumlarla öz vəzifəsini layiqincə həyata keçirməkdədir.

Azərbaycan MEA-nın müxbir üzvü, millət vəkili, professor Nizami Cəfərovun rəhbərliyi ilə mərkəz öz fəaliyyəti dövründə türk dünyası və atatürkçülüklə bağlı cəmiyyətin ehtiyac duyduğu məsələləri həmişə diqqətdə saxlamışdır. Bu sahədə nəzərəçarpacaq elmi tədqiqatlar aparılmış, zəruri ədəbiyyatların (72 adda kitab və 24 sayda «Bülleten») nəşri reallaşdırılmış və bu proses indi də davam etdirilir. Azərbaycan Türkiyə münasibətlərinə dair ayrı-ayrı nəşrlərin çapı Azərbaycan və Türkiyə oxucusu üçün yeni və təqdirəlayiq ədəbiyyatlardır. (Atatürk Mərkəzinin nəşrlərinin ümumi siyahısı ayrıca verilmişdir).

Fəaliyyətimizin digər göstəricisi və yayınlayıcısı olan «Azərbaycanda Atatürk Mərkəzi Bülleteni»ləri hər rüb ardıcıl olaraq nəşr olunmuşdur (cəmi 24 say). Burada Mərkəzin özünün keçirdiyi və iştirak etdiyi çoxsaylı tədbirlər, görüşlər, konfranslar, müşavirələr, təqdimatlar, elmi əməkdaşların araşdırma materialları və digər uyğun yazılar əksini tapır. Bu baxımdan, Atatürk Mərkəzinin təşəbbüsü ilə keçirilən, yaxud mərkəz müdirinin, onun müavininin və kollektivin iştirak etdiyi tədbirləri də xüsusilə qeyd etmək yerinə düşər. Mərkəzin konfrans salonunda 300-dək görüş, təqdimat, elmi konfrans və simpoziumlar keçirilmişdir ki, bunların əksəriyyəti bilavasitə prof. dr. Nizami Cəfərovun təşəbbüsü və təşkilatçılığı ilə baş tutmuşdur.

Hazırda Atatürk, onun silahdaşları, Türk dünyası tarixi, mədəniyyəti ilə əlaqədar, böyük şəxsiyyətlərimiz, dövlət qurucularımız haqqında yeni kitabların hazırlanması işi davam etdirilir. Bütün bunlar isə Azərbaycanda kütləvi oxucunu, həmçinin elmi ictimaiyyəti türkçülüyün, atatürkçülüyün müxtəlif aspektləri, bütün dünyada tanınan böyük türklərin həyat və fəaliyyəti ilə tanışlığa geniş imkan yaratmaqdır. Və əsas məqsədlərdən biri də odur ki, Azərbaycan cəmiyyəti tərkib hissəsi olduğu türk dünyasının şanlı dövllətçilik tarixini dərindən

öyrənsin və xalqlarımızın böyük şəxsiyyətlərini tanısın, onlarla fəxr etsin.

Türk dünyasının böyük öndərləri Mustafa Kamal Atatürkün XX əsrin əvvəllərində, Heydər Əliyevin XX əsrin sonlarında dövlət qurmaq və onun bütövlüyünü, müstəqilliyini müdafiə etmək barədə ideyalarının tədqiqində mərkəzin müdiri prof. dr. Nizami Cəfərov o qədər konkret və orijinaldır ki, elmi, ictimai fəaliyyətində Azərbaycan və türk dünyası təcrübəsində dövlət qurmağın fəlsəfi mahiyyəti, tarixi proseslərin ana meylləri çeşidlənmiş olur. Alimin dəyərləndirmələrinə görə, müstəqil, inkişaf etmiş müasir Türkiyənin və yeni müstəqil Azərbaycanın timsalında Atatürkün və Heydər Əliyevin dövlətçilik təcrübələrinin paralelləri, ümumtipoloji cəhətləri çoxdur. Odur ki, Atatürk Mərkəzinin gördüyü ən mühüm işlərdən biri də bu aspekdə müqayisə texnologiyalarını hazırlamaqdır.

## Beynəlxalq fəaliyyətin konturları

Azərbaycan dövləti olaraq, beynəlxalq əlaqələrimizdə Türk dünyası faktoruna da böyük önəm verilir. Türk dünyası və Türkiyənin timsalında münasibətlərimiz xalqlarımızın tarixi, etimoloji, mədəni-mənəvi birliyindən rişələnir və yeni çağda ümummilli lider Heydər Əliyevin «Biz bir millət, iki dövlətik» – milli-ideoloji məzmunu böyük olan tarixi kəlamı anlamını və formasını almışdır.

Prezident İlham Əliyev tarixi bağlılığı möhkəm olan xalqlarımızın çağdaş əlaqələrinə milli aspektdən, Heydər Əliyev kursuna sədaqət nümayiş etdirməklə, türk dünyasına diqqətin milli, ideoloji konturlarını müəyyənləşdirmişdir: «Biz ümumi kökləri olan bir xalqıq, bir dilimiz, bir dinimiz var. Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər həmişə dostluq və qardaşlıq kimi səciyyələndirilmişdir. Əsrlər boyu bizi ayırmaq istəsələr də, bu cəhdlər nəticə verməmişdir. İndi də heç bir qüvvə bizi ayırmaq iqtidarında deyil. Azərbaycanın dost və qardaş münasibətinə daha böyük ehtiyacı var».

Bu yanaşma bir qədər geniş, həm də konkret anlamda Prezident İlham Əliyevin Türkiyə ilə birlikdə türk dünyasına, türk xalqlarına, ümumi etnik-mədəni

dəyərlərimizə doğma münasibətidir. Və dövlətimizin başçısının bu kimi baxışları Atatürk Mərkəzinin beynəlxalq fəaliyyətinin ideya-istiqamətində mühüm şərt olaraq götürülür.

Fəaliyyət göstərdiyi müddət ərzində Atatürk Mərkəzi Azərbaycanın, Türkiyənin, Türk dünyasının əsas Atatürk mərkəzləri, elmi, mədəni qurumlarla səmərəli əməkdaşlıq qurmuş və hazırda özünün beynəlxalq əlaqələrinin miqyasını daha da genişləndirməyə çalışmışdır. Ötən 6 il ərzində prof. dr. Nizami Cəfərovun təmsilçiliyi ilə mərkəzin beynəlxalq tədbirlərdə, konfranslarda iştirakını  xüsusilə əhəmiyyət daşıyan məsələlər sırasında qeyd etmək lazımdır:

*İstanbul şəhərində Türk dövlət və topluluqları Dostluq və işbirliyinin qurultayı – «Azərbaycanşünaslığın metodoloji problemləri» mövzusunda məruzə (2002).*

*Türkiyənin İstanbul və Ankara şəhərlərində olmuş. Türkiyə Böyük Millət Məclisində, Türkiyənin Nazirlər Kabinetində, İstanbul şəhər bələdiyyəsində, Atatürk Kültür Dil və Tarix Yüksək Qurumunda görüşlər və müzakirələr (2002).*

*Quzey Kıbrıs Türk Cumihuriyətinin müstəqilliyi ilə əlaqədar Lefkoşa şəhərində dövlət şənlikləri və Osmanlı dövlətinin 721 illiyi münasibəti ilə əlaqədar Biləcik şəhərində bayram tədbirləri (2002).*

*Azərbaycan Xalq Cümhuriyyətinin 85 və ümummilli lider Heydər Əliyevin 80 illik yubileyi ilə əlaqədar Türkiyənin İzmir şəhərində keçirilən tədbirləri, Türkiyənin Adana şəhərində «Türkiyə-Azərbaycan qardaşlığı» konfrası (2003).*

*Türkiyənin Ankara şəhərində ezamiyyətdə olmuşdur. Atatürkün anım günü və Antalya şəhərində mədəniyyət tədbirləri (2004).*

*Türkiyədə qondarma «erməni soyqırmı»məsələsinə həsr olunmuş tədbir, İstanbulda keçirilən Atatürk qurumlarının ümumi toplantısı (2005).*

*Şimali Kipr Türk Cumhiriyyətinə səfər, Lefkoşda Azərbaycan nümayəndəliyinin açılışı (2005).*

*Türkiyənin Qazi Universitetində «1915-ci il erməni məsələsi» mövzusunda elmi simpozium (2005).*

*İstanbulun Boğaziçi Universitesində Heydər Əliyevin anım günü münasibətilə elmi tədbir (Prezidentin İcra Aparatının şöbə müdiri Əli Həsənovla. 2005).*

*Türkiyənin Antaliya şəhərində «Dialoq Avrasiya» təşkilatının 7-ci ümumi iclası (2006).*

*Türkiyəyə işgüzar səfər (2006).*

*Qırğız Respublikasının paytaxtı Bişkekdə Şimali Kipr Respublikasının problemlərinə həsr olunmuş tədbir (2006).*

*Ukraynanın Kiyev şəhərində Dialoq Avrasiya Platformasının «Xalqların bir-birinə yaxınlaşmasında təhsilin və medianın rolu» mövzusunda toplantı (2007).*

*Türkiyənin Ankara şəhərində «İCANAS -38» Beynəlxalq Asiya və Şimali Afrika Araşdırmaları konqresi (2007).*

*Qırğızıstanın Bişkek şəhərində « I Uluslararası Böyük Türk Dili  Qurultayı» (İhsan Doğramacının şərəfinə). «Genel olaraq Türkiyə türkcəsi» mövzusunda məruzə (2007).*

Bu kimi tədbirlərdə prof. dr. Nizami Cəfərov mərkəzi layiqincə təmsil etmiş, nəticə olaraq bir sıra beynəlxalq səviyyəli qurumlarla ikitərəfli əməkdaşlıq və elmi tədqiqat işlərinin mübadiləsində anlaşma əldə olunmuşdur.

Bu gün, elə sonrakı dövrlər üçün də Atatürk Mərkəzinin perspektivə nəzərdə tutduğu, dəqiqliklə əməl etdiyi digər doğal prioritet istiqamət də aydın və birmənaladır - Azərbaycan Prezidenti İlham Əliyevin türk dünyasında qarşılıqlı əlaqələrin yaradılması və zənginləşməsi sahəsində xidmətlərini işıqlandırmaq, bu sahədə digər türk respublikalarında aparılan işləri araşdırmaq. Cəmiyyətə bəllidir ki, Azərbaycan Prezidenti İlham Əliyev öz fəaliyyəti ilə xalqının yüksəlişi, türk dünyasının birliyi, qardaşlığı yolunda ali məqsədlərə xidmət edir. Və türk dünyasının müasir liderlərindən biri olmaq şərəfini qazanmış şəxsiyyətlərdəndir. Bu mənada, Nizami Cəfərovun Atatürk Mərkəzində həyata keçirdiyi siyasət və bu siyasi düşüncədən irəli gələn əsas prinsip belədir - mərkəz Azərbaycan dövlətinin siyasətini, müstəqillik uğrunda mübarizəsini, Heydər Əliyevin yaratdığı ənənələri təbliğ etməli, Azərbaycanın türk dünyasında nüfuzunun yüksəldilməsi işində öz köməyini göstərməlidir. Və şübhəsiz göstərir də...

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

## *Azərbaycanda Atatürk Mərkəzinin yaradılması haqqında*

Türk dünyasının böyük öndəri, Türkiyə Cumhuriyyətinin banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yeri nəzərə alaraq, Atatürk irsinin, ümumiyyətlə türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədilə qərara alıram:

1.Azərbaycanda Atatürk Mərkəzi yaradılsın.

2. Müəyyən edilsin ki, Azərbaycan Reəpublikasının Prezidenti Atatürk Mərkəzinin fəxri sədridir.

3. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbərinə tapşırılsın ki, Atatürk Mərkəzinin statusu, strukturu və ştat vahidlərini müəyyən etməklə onun Nizamnaməsini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Dövlət Əmlakı Nazirliyi Bakı şəhər İcra Hakimiyyəti ilə birlikdə Atatürk Mərkəzi üçün bina ayrılması məsələsini bir ay müddətində həll etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

*Heydər Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 9 mart 2001-ci il. №641*

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

N.Q.Cəfərovun Azərbaycanda Atatürk Mərkəzinin müdiri təyin edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Nizami Qulu oğlu Cəfərov Azərbaycanda Atatürk Mərkəzinin müdiri təyin edilsin.

*Heydər Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 04 iyul 2001-ci il, №75*

# Azərbaycanda Atatürk Mərkəzinin Əsasnaməsi

## I Ümümi müdddəalar

**1.** Azərbaycanda Atatürk Mərkəzi (bundan sonra - Mərkəz) Azərbaycan Respublikası Prezidentinin 9 mart 2001 - ci il tarixli 641 nömrəli sərəncamı ilə yaradılmışdır.

Mərkəz Mustafa Kamal Atatürkün irsinin, onun türkdilli xalqların tarixində tutduğu yerin, ümumiyyətlə, türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədilə yaradılmiş elmi araşdırmalar və mədəniyyət təşkilatıdır.

Azərbaycan Respublikası Przidenti Mərkəzin fəxri sədridir.

**2.** Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə bu Əsasnaməni rəhbər tutur.

**3.** Mərkəz Azərbaycan Respublikasının elmi - mədəni mərkəzləri ilə, digər türkdilli dövlətlərin analoji qurumları ilə, eləcə də dünyanın müxtəlif ölkələrində

fəaliyyət göstərən elmi mərkəzlərlə əməkdaşlıq şəraitində fəaliyyət göstərir.

**4.** Mərkəz hüquqi şəxsdir, dövlət büdcəsindən maliyyələşdirilir, müstəqil balansa, xərclər smetasına, əmlaka, bank təşkilatlarında hesablaşma və digər hesablara, Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı olan möhürə, müvafiq ştamp və blanklara malikdir.

**5.** Mərkəzə verilmiş əmlak dövlət mülkyyətidir. Mərkəz öz fəaliyyətinin həyata keçirilməsi üçün ona operativ idarəetmə hüquqları ilə verilmiş əmlaka və bu əmlak üzərində hüququna malikdir.

**6.** Mərkəz Bakı şəhərində yerləşir.

**7.** Mərkəzin yenidən təşkili və ləğv edilməsi Azərbaycan Respublikası Prezidentinin qərarı ilə həyata keçirilir.

## II Mərkəzin əsas vəzifələri və funksiyaları

**8.** Mərkəzin əsas vəzifəsi Türkiyə Cumhuriyyətinin banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün türkdilli xalqların tarixində tutduğu mühüm yeri, onun xalqlarımızın inkişafında rolunu, ümumiyyətlə, türkdilli xalqların tarixi və mədəniyyyətinin fundamental şəkildə hərtərəfli tədqiqi və onların zəngin irsinin təbliğ olunmasıdır.

**9.** Mərkəz ona həvalə olunmuş əsas vəzifəsinə uyğun olaraq aşağıdakı funksyaları həyata keçirir.

**9.1.** Mustafa Kamal Atatürk irsini tədqiq və təbliğ etmək məqsədilə bu işlə məşğul ola bilən elm və mədəniyyət xadimlərini müvafiq mövzuların işlənilməsinə cəlb edir və onların elmi fəaliyyətinə lazımi şərait yaradır;

**9.2.** Atatürk irsinin elm, təhsil, mədəniyyət və s. sahələrdə qorunması və inkişaf etdirilməsini təmin etmək üçün tədqiqatlar aparır;

**9.3.** Türkdilli xalqların ictimai fikir tarixində və mədəni inkşafında Atatürk irsinin rolunun müəyyənləşdirilməsi üçün tədbirlər həyata keçirir;

**9.4.** Aparılan tədqiqatların nəticələrini yaymaq və təbliğ etmək məqsədilə elmi əsərlər, məcmuələr və s. nəşr edir;

**9.5.** Atatürk şəxsiyyyəti və irsinin tədqiqinə həsr olunmuş görkəmli əsərlərə görə mükafatlar verir;

**9.6.** Atatürk irsinə aid sənədlərin vahid arxivini və fondunu yaradır;

**9.7.** Türkdilli dövlətlərin həyatının müxtəlif sahələrinə həsr edilmiş tədbirlər keçirir;

**9.8.** Respublika daxilində və respublikadan kənarda türkdilli dövlətlərin elmi və mədəniyyəti ilə əlaqədar tədqiqatlar aparan digər qurumlarla münasibətlərini

qurur və onların fəaliyyəti ilə öz fəaliyyətini əlaqələndirmək üçün konfrans və müşavirələr keçirir;

**9.9.** Türkdilli dövlətlərin və digər xarici dövlətlərin müvafiq qurumları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;

**9.10.** Müvafiq beynəlxalq tədbirlərdə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasını təmsil edir və belə tədbirlərin Azərbaycan Respublikasında keçirilməsini təmin edir.

*13 avqust 2001- ci il,*
*Bakı şəhəri.*

## Azərbaycanda Atatürk Mərkəzinin təntənəli açılış mərasimi

2004-cü il aprelin 10-da Azərbaycanda Atatük Mərkəzinin təntənəli açılış mərasimi olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Mərasimə toplaşanlar dövlətimizin başçısını ehtiramla qarşıladılar. Respublikamızın rəhbəri xarici qonaqlarla, türkdilli ölkələrin Bakıdakı səfirləri ilə səmimi görüşdü.

Müstəqil Azərbaycanın qurucusu, xalqımızın ümummilli lideri prezident Heydər Əliyev türk dünyasının böyük öndəri, Türkiyə Cumhuriyyətinin banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yeri nəzərə alaraq, Atatürk irsinin, ümumiyyətlə, türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədi ilə 2001-ci il martın 9-da Azərbaycanda Atatürk Mərkəzinin yaradılması haqqında sərəncam imzalamışdır. Atatürk Mərkəzinin yaradıcısı və ilk fəxri sədri olan Heydər Əliyev bu sənədi imzalaqla Azərbaycanla Türkiyə arasında tarixi əlaqələrin nə qədər sıx olduğunu bir daha nümayiş etdirdi. Elmi araşdırmalar və mədəniyyət təşkilatı olan bu Mərkəzin əsas məqsədi Mustafa Kamal Atatürkün türk dünyasındakı yerini və rolunu, türk dilli

xalqların tarixi və mədəniyyətini fundamental şəkildə hərtərəfli öyrənmək və bu xalqların zəngin irsini təbliğ etməkdir.

Ölkəmizin həyatında əlamətdar hadisəyə həsr olunmuş mərasimi Azərbaycanda Atatürk Mərkəzinin müdiri, Milli Məclisin deputatı, Milli Elmlər Akademiyasının müxbir üzvü Nizami Cəfərov açdı.

# Azəbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi



***Hörmətli cənab nazir!***
***Hörmətli qonaqlar!***
***Hörmətli xanımlar və cənablar!***

Bu gün Azərbaycanın müasir tarixində çox əlamətdar bir gündür. Bu gün Azərbaycanda Atatürkün evi - Atatürk Mərkəzi açılır. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Burada qeyd olundu ki, bu mərkəzin açılması barədə qərar Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən verilmişdir. Həmin sərəncam veriləndən sonra bir müddət mərkəz üçün münasib bir bina axtarılıb və nəhayət, bu, müəyyən olunubdur. Bu gün gözəl tarixi binada Atatürk Mərkəzi öz fəaliyyətinə başlayır.

Mustafa Kamal Atatürk dünyanın ən görkəmli şəxsiyyətlərindən biridir. Böyük dövlət xadimi, siyasi

xadimdir. Onun Türukiyə qarşısında, bütün türk dünyası qarşısında misilsiz xidmətləri olmuşdur. Ən böyük xidməti isə Türkiyə Cumhuriyyətini yaratmasıdır. Müasir Türkiyə Mustafa Kamal Atatürkün əsəridir. Necə ki, müasir Azərbaycan Heydər Əliyevin əsəridir. Atatürkdən sonra 65 il yaşayan Türkiyənin bütün uğurlarının təməli məhz 1923- cü ildən qoyulmuşdur. Bu, düzgün, sağlam təməl üzərində qurulmuş müasir dövlət inkişaf etmiş, güclənmişdir və bu gün Türkiyə dünyada böyük siyasi çəkiyə malik olan bir ölkədir. Türkiyənin dünya birliyində çox önəmli yeri vardır. Bu, bizim hamımızı – bütün türk dünyasını sevindirir.

Mustafa Kamal paşanın ən böyük xidmətlərindən biri də odur ki, onun tərəfindən, bilavasitə onun rəhbərliyi və iştirakı ilə türk ordusu yaranmışdır. Bu ordu bu gün güclənmiş və deyə bilərəm ki, bölgədə, regionda sülhün, təhlükəsizliyin keşiyində duran bir ordudur. Türkiyə Cumhuriyyətinin, bütün türk dünyasının rahat, təhlükəsiz şəraitdə yaşamasında mühüm rol oynayan bir amildir. Biz, türk dünyası haqlı olaraq bundan qürur hissi duyuruq.

Mustafa Kamal Atatürk təkcə Türkiyə haqqında deyil, bütün türk dünyası haqqında daim düşünmüşdür. O cümlədən Azərbaycanda yaşanan olaylar da onu hər zaman narahat edirdi, düşündürürdü və azərbaycanlı qardaşlarına

olan məhəbbəti, hörməti, sevgisi bizim hamımıza bəllidir.

Təsadüfi deyil ki, Azərbaycan müstəqilliyə qovuşandan sonra onu tanıyan ilk ölkə Türkiyə olmuşdur. Ondan sonra Türkiyə-Azərbaycan əlaqələri, münasibətləri günügündən inkişaf edir, güclənir. Bu münasibətlərin inkişafında Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xidmətləri müstəsnadır. Məhz onun fəaliyyəti nəticəsində son on il ərzində Türkiyə-Azərbaycan münasibətləri güclənmiş, inkişaf etmişdir və bu gün ölkələrarası münasibətlərə örnək, nümunə ola bilər. Biz bu siyasətə sadiqik. Biz, Azərbaycanın yeni rəhbərləri bütün məsələlərdə Heydər Əliyevin yolu ilə gedirik. O cümlədən Türkiyə-Azərbaycan münasibətlərinin inkişafı baxımından da biz bu siyasətə sadiqik. Ölkələrimiz arasında bütün sahələrdə uğurlu əməkdaşlıq, işbirliyi mövcuddur. Siyasi, iqtisadi, hərbi, mədəni- bütün sahələrdə münasibətlərimiz inkişaf edir və bu, bizi çox sevindirir. Bu gün Türkiyədə və Azərbaycanda dünyanın ən böyük layihəsi həyata keçirilir. Bu layihə bizi daha sıx bağlayacaq, daha da sıx birləşdirəcəkdir. Regional əməkdaşlıq üçün gözəl şərait yaradacaqdır. Ümumiyyətlə, regionda bundan sonra gedən proseslərə böyük təsir göstərəcəkdir. Bizim gücümüz birliyimizdədir. Azərbaycan müstəqil ölkə kimi yaşamağa başlayandan sonra biz hər zaman Türkiyənin dəstəyini hiss

etmişik və ümummilli liderimiz Heydər Əliyevin bir kəlamını həmişə yadda saxlayırıq: Biz bir millət, iki dövlətik. Türkiyə harada, Azərbaycan orada, Azərbaycan harada, Türkiyə orada olmalıdır. Əminəm ki, bundan sonra da belə olacaqdır.

Bilirsiniz ki, Heydər Əliyev, eyni zamanda, Atatürk Beynəlxalq Sülh Mükafatı ilə təltif edilmişdir. Mən o mərasimi çox yaxşı xatırlayıram. O, orada böyük bir nitq söylədi və qeyd etdi ki, müxtəlif dövrlərdə çoxlu ordenlər, medallar, mükafatlar almışdır. Amma dedi ki, mənim üçün bu mükafat indiyə qədər aldığım bütün mükafatlardan qiymətlidir, doğmadır, əzizdir. Bu da təbiidir. Çünki Heydər Əliyev Atatürkün mədəni, tarixi irsinə həmişə sadiq olan bir şəxsiyyət idi və bugünkü Azərbaycan da məhz bu yol ilə gedir. Azərbaycan güclənir, öz iqtisadi, siyasi potensialını işə salır və dünyada özünə layiq yerini artıq tutubdur. Mən əminəm ki, ölkəmiz bundan sonra daha yüksək pilləyə qalxacaqdır. Bu gün çox əlamətdar bir gündür. Mən ümid edirəm və əminəm ki, burada, Azərbaycanda fəaliyyət göstərəcək Atatürk Mərkəzində Atatürkün tarixi irsi öyrəniləcək və təbliğ ediləcəkdir. Mən Atatürk Mərkəzinə uğurlar arzulayıram. Sizin hamınızı bu tarixi hadisə münasibətilə bir daha təbrik edirəm. Sağ olun.

# Azərbaycanda Atatürk Mərkəzinin müdiri Nizami Cəfərovun çıxışı



***Möhtərəm cənab Prezident!***
***Türkiyə Cumhuriyyətinin hörmətli dövlət naziri!***
***Əziz qonaqlar, xanımlar və cənablar!***

Azərbaycan xalqının milli lideri, müasir Azərbaycan dövlətçiliyinin qurucusu, türk dünyasının böyük siyasi xadimi Heydər Əliyevin yaratdığı Atatürk Mərkəzinin yeni binası önündə sizi ürəkdən salamlayır, hamınıza «Xoş gəlmisiniz, səfa gətirmisiniz!» deyirəm.

Möhtərəm cənab prezident!

Atatürk Mərkəzinin açılışında Sizin bilavasitə iştirakınız bu mərasimə xüsusi bir rövnəq verməklə yanaşı, Mərkəz əməkdaşlarının məsuliyyətini qat-qat artırır. Atatürkü öyrənmək yalnız türk dünyasının, ümumən dünyanın dahi siyasi xadimlərindən birinin tarixi

xidmətlərini şükranlıqla xatırlamaq ehtiyacının nəticəsi deyil, eyni zamanda müstəqil dövlət quran türkdilli ölkələr üçün böyük siyasi-ideoloji təcrübə verir.

Atatürk Mərkəzinin açılması Azərbaycan dövlətinin qurucusunun çox böyük arzularından biri idi. Amma biz əsas bu işi görəcəyik ki, bu arzulara sadiq olacağıq və bizim böyük rəhbərimiz, milli liderimiz necə buyurmuşsa, onu yerinə yetirməyə çalışacağıq.

Cənab Prezident, Sizin türk dünyasına – Qazaxıstana, Özbəkistana səfərləriniz və Türkiyə Cumhuriyyətinə qarşıdakı səfəriniz Azərbaycan ilə türk dünyası arasında daha sıx əlaqələr yaratmaqdadır. Biz əminik ki, bu əlaqələr yeni bir mərhələyə qalxacaq və dünyada öz yerini tutmaqda həm Azərbaycan xalqına, həm də türk dünyasına kömək edəcəkdir.

Əlbəttə, Atatürk Mərkəzi bu günə qədər müəyyən işlər görmüşdür. Biz bu işləri sadəcə başlanğıc hesab edirik. Atatürk haqqında kitablar buraxılmış, türk dünyasına dair müəyyən kitablar nəşr olunmuşdur. Amma bununla yanaşı, bizə bu gözəl binanın verilməsindən sonra, – cənab prezident, mən bunu xüsusi vurğulamaq istəyirəm – binanın bu vəziyyətə çatmasında Sizin xüsusi xidmətləriniz və qayğılarınız vardır,- dövlətimiz, xalqımız və ümumən türk dünyası üçün

daha böyük həvəslə, maraqla, canyanğısı ilə işləyəcəyik.

Mən, eyni zamanda, bu Mərkəzin binasının gözəl şəkildə bərpa olunmasında xidmətləri olan bütün təşkilatlara, xüsusilə, «Azəraqrartikinti» Səhmdar Cəmiyyətinə Sizin hüzurunuzda təşəkkür etmək istəyirəm. Nazirlər Kabinetinə, ümumiyyətlə, bu məsələlərlə məşğul olan bütün təşkilatlara minnətdarlığımı bildirirəm. Təbiidir ki, yenə də böyük işin mərkəzində Siz durursunuz. Buna görə Sizə bir daha ürəkdən təşəkkür edirəm. «Xoş gəlmisiniz!» deyirəm. Biz sizin bütün arzularınızı həyata keçirməyə həmişə hazırıq. Sizin hər bir göstərişiniz bizim üçün ideoloji, metodoloji göstəriş olacaqdır. Ürəkdən təşəkkür edirəm.

# Türkiyə Cümhuriyyətinin dövlət naziri Bəşir Atalayın çıxışı



***Çox hörmətli Cümhurbaşqanı!***

***Dəyərli qonaqlar!***

Əvvəlcə, hamınızı hörmət və sevgi ilə salamlayıram.

Bakıda Atatürk Mərkəzinin açılış mərasimində iştirak etmək üçün gədiyim dost və qardaş Azərbaycana türk xalqının hərarətli salamını və məhəbbətini gətirmişəm. Dost və qardaş ölkə Azərbaycanda olmaq hər bir türk vətəndaşı və Türkiyə Cümhuriyyətinin hər bir nümayəndəsi üçün daim şərəfdir və bu, xüsusi bir məmnunluq və qürur mənbəyidir.

Daha öncə, 2003-cü il dekabrın 15-də mərhum Heydər Əliyevi son mənzilə yola salmaq üçün Bakıya gəlmişdim. Sovetlər Birliyi və müstəqillik dövründən sonra Azərbaycan tarixini yaradan böyük dövlət və

siyasət adamı, bütün türk dünyasının böyük övladı Heydər Əliyevi bu anda dərin hörmət və rəhmətlə anmaq hamımız üçün bir borcdur. Mərhum Heydər Əliyevin təlimatları ilə çalışmağa başlayan və Milli Məclisin deputatı professor Nizami Cəfərovun rəhbərliyi ilə çox dəyərli işləyən bu Mərkəzin Atatürkün adına yaraşan bu binada daha faydalı fəaliyyət göstərməsindən böyük məmnunluq duyuram.

Doğrudan da, hörmətli cümhurbaşqanı mərhum Heydər Əliyevə, indiki prezident İlham Əliyevə bu tarixi binanı Atatürk Mərkəzinə verən Azərbaycan dövlətinə, hökumətinə, bu işdə böyük əməyi olanların hamısına təşəkkür edirəm. Bu bina Bakıda tarixi əhəmiyyəti olan bir tikilidir. Bir az əvvəl içərisini gəzdik, çox gözəl qədim memarlığı olan bu bina vaxtilə dəyərli mədəniyyət mərkəzi olmuşdur. Bundan sonra da böyük fəaliyyətlər üçün məkan olacaqdır.

Atatürk Mərkəzi Azərbaycan və Türkiyə xalqları arasındakı köklü qardaşlıq tellərinin çox gözəl bir nümunəsidir və inanıram ki, bu, aramızda yeni bir körpü olacaqdır. Onun Atatürkün düşüncə sisteminin Azərbaycanda və türk dünyasında daha dərindən anlaşılmasına da xidmət göstərəcəyinə inanıram.

Türkiyə 1991-ci il noyabrın 9-da Azərbaycanın

müstəqilliyini tanıyan ilk ölkədir və bu, doğrudan da, belə olmalı idi. Biz bundan çox məmnunuq. O gündən bəri mükəmməl səviyyədə olan əlaqələrimiz, sağam dostluq və strateji işbirliyi əsasında irəliləməkdədir. Bu işbirliyimizin cümhurbaşqanı hörmətli İlham Əliyevin öndərliyi ilə daha da dərinləşəcəyi və genişlənəcəyinə inamımız böyükdür.

Bu gün gənc bir liderin rəhbərliyi ilə Azərbaycanın öz iqtisadi və sosial inkişafını davam etdirərək sahib olduğu təbii sərvətləri və insan potensialı ilə bölgəsinin yüksələn gücü olması üçün sağlam addımlarla getdiyini görmək bizləri, Türkiyəni, türk xalqını məmnun etməkdədir.

İkitərəfli əlaqələrimizin hər sahədə inkişaf etdirilməsi hökumətlərimizin xüsusi diqqət mərkəzindədir. Bizim münasibətlərmiz mərhum Heydər Əliyevin ifadəsi ilə «Bir millət, iki dövlət» təməlində siyasətdən iqtisadiyyata, səhiyyədən təhsilə, mədəniyyətdən sənətə və elmə qədər həyatın hər sahəsində ölkələrimizin inkişafını təşkil edən müstəsna əlaqələrdir. Bu özəl və xüsusi əlaqələrimiz bölgədə sabitliyə və işbirliyi layihələrinə əsas yaradır. Dünyanın ən böyük layihəsi kimi tanınan Bakı-Tbilisi-Ceyhan boru xətti və digər enerji layihələri bölgəyə rifah və sülh gətirəcəkdir. Bu

mənada xarici siyasətimizdə Atatürkün «Yurdda sülh, cahanda sülh» kəlamını əsas tutmaqla hərəkət edərək, bölgə üçün ən böyük əngəl yaradan münaqişələrin sülh yolu ilə çözülməsinin vacibliyini vurğulamaq istəyirəm.

Türkiyə indiyə qədər olduğu kimi, bundan sonra qardaş Azərbaycana Ermənistana olan münaqişənin çözümü üçün əlindən gələn dəstəyi verməyə daim davam edəcəkdir. Bu duyğu və düşüncələrlə açılışında iştirak etməkdən şərəf duyduğum Atatürk Mərkəzinin yaradılmasında əməyi olan və burada çalışan hər bir şəxsə hökumətimiz və türk xalqı adından bir daha təşəkkür edir, hörmət və ehtiramımı bildirirəm.

# Atatürk Yüksək Qurumunun başqanı, professor Sadıq Turalın çıxışı



***Azərbaycan dövlətinin çox dəyərli Prezidenti İlham Əliyev!***

***Türkiyənin hörmətli dövlət naziri cənab Atalay!***

***Azərbaycan hökumətinin hörmətli nazirləri!***

***Türkiyənin Bakıdakı hörmətli səfiri!***

***Sevgili qonaqlar, xanımlar və cənablar!***

2000-ci ildə «Dədə Qorqud» dastanının yubileyi ilə əlaqədar Bakıda olduğumuz günlərdə mərhum böyük dövlət adamı cənab Heydər Əliyev bizi qəbul etdi. Orada ona dedik ki, Siz Atatürkə böyük sevgi ilə bağlı böyük dövlət adamısınız Türkiyədə isə Atatürk Sülh mükafatının sahibi olan dünyanın dövlət adamlarından

birisiniz. Burada parka, prospektə onun adını verdiniz. Türkiyədə isə Atatürk Mərkəzini yaratmaq ancaq və ancaq sizə yaraşar. Biz bunu Sizdən xahiş edirik. Bu sözləri deyəndən sonra cənab Heydər Əliyev dedi ki, zatən mən bunu düşünürdüm. Daha sonra isə bu barədə Sərəncamı mənə göndərdi.

Bu dahi şəxsiyyət Mərkəz üçün heç bir yeri bəyənmirdi. Bəyənməməkdə də israr edirdi. Niyə belə etdiyini isə biz bu gün görürük. Çünki, doğrudan da, Atatürk Mərkəzinə layiq bina görürük. Çünki, doğrudan da, Atatürk Mərkəzinə layiq bina seçmişdir.

Atatürk iyirminci yüzildə yetişmiş, müasir Türkiyə dövlətini qurmuş, hazırda bayrağı dünyada dalğalanan bir dövlətin öndəri kimi tanınır. O, imperializmə sülhü, millətinə isə birləşib bütünləşməyi öyrədən böyük dövlət adamıdır. Onda qardaşlarımızın, eləcə də dünyanın öyrənəcəyi bir çox fikirlər var.

Azərbaycanın mərhum Prezidenti Heydər Əliyev Atatürkün irsini gözəl bilən, təbliğ edən ən dəyərli dövlət adamı idi. Onun Nizami Cəfərov kimi bir alimi bu Mərkəzə müdir təyin etməsi, bu binanı seçməsi və cənab İlham Əliyevə belə bir böyük əmanət verməsi bizi çox sevindirir. Biz onu rəhmət və minnətdarlıqla anırıq.Atatürk Mərkəzi sadəcə, azərbaycanlıların

deyil, hamımızındır. Böyük Türkiyənin daha çox inkişaf etməsini arzulayaraq, hamınızı sevgi və hörmətlə bir daha salamlayır və dərin minnətdarlığımı bildirirəm!

***

*Sonra Prezident İlham Əliyev Atatürk Mərkəzinin rəsmi açılışını bildirən qırmızı lent kəsdi. Dövlətimizin başçısı mərkəzin ayrı-ayrı otaqlarını gəzdi, Mustafa Kamal Atatürkün bürüncdən hazırlanmış büstünə baxdı, son vaxtlar mərkəz tərəfindən nəşr olunan kitablarla maraqlandı.*

*Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, xarici işlər naziri Elmar Məmmədyarov, Prezident Administrasiyasının şöbə müdiri Fatma Abdullazadə, nazirlər, Milli Məclisin deputatları, türkdilli ölkələrin Bakıdakı səfirləri və digər rəsmi şəxslər mərasimdə iştirak edirdilər.*

# AZƏRBAYCANDA

# ATATÜRK MƏRƏKƏZİNİN

# AÇILIŞ  MƏRASİMİNDƏN

# FOTOLAR













# Mərkəzin strukturu

* * *

## Atatürk Mərkəzinin müdiri



***Əməkdar elm xadimi,***
***AMEA-nın müxbir üzvü,***
***Prof.dr.***
**Nizami Qulu oğlu Cəfərov**

1959-cu ildə Qazax (indiki Ağstafa) rayonunun Zəlimxan kəndində anadan olmuşdur. 1977-ci ildə orta məktəbi bitirərək Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuşdur. 1982-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə başa vurmuşdur. N.Cəfərov 1982-1985-ci illərdə "Azərbaycan dilçiliyi" ixtisası üzrə aspiranturada təhsil almış, 1985-ci ildə namizədlik, 1991-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1985-87-ci illərdə Azərbaycan EA Nəsimi adına dilçilik institutun da elmi işçi, 1987-1991-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetində tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri işləmişdir.

1991-ci ildə BDU-nun Türkologiya kafedrasına

müəllim qəbul edilən N.Cəfərov 1993-cü ildə həmin kafedranın professoru, 1994-cü ildə isə universitetin filologiya fakültəsinin dekanı seçilmişdir. 2001- ci ildən BDU-nun Ümumi dilçilik kafedrasının müdiridir.

N. Cəfərov 2000-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, Azərbaycan Milli Məclisinə üzv seçilmişdir. 2001-ci ildən Azərbaycan MEA- nın müxbir üzvüdür. Həmin il Azərbaycan Prezidentinin sərəncamı ilə Azərbaycanda Atatürk Mərkəzinin müdiri təyin olunmuşdur. 2005-ci ildə yenidən Milli Məclisin deputatı və Mədəniyyət məsələləri daimi komissiyasının sədri suçilmişdir. Dialoq Avrasiya Platformasının Azərbaycan üzrə Milli Komitəsinin sədridir.

Dilçiliyə, ədəbiyyatşünaslığa, mədəniyyətşünaslığa, ümumi azərbaycanşünaslığa, türkologiyaya dair onlarla kitabın, dərsliklərin, proqramların, dünyanın müxtəlif ölkələrində çap olunmuş yüzlərlə elmi, elmi-publisistik məqalənin müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin, onun İdarə Heyətinin və Ağsaqqallar şurasının, bir sıra akademik nəşrlərin redaksiya heyətlərinin üzvüdür.

## Müdir müavini



### Osman Ənvər oğlu Musayev

1958-ci ildə Ağstafa rayonunun Sadıqlı kəndində anadan olub. 1982-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib.

On il Saatlı rayonunda pedoqoji fəaliyyət göstərib.

1994-cü ildə mətbuatda çalışmağa başlayıb. 2000-ci ildən Odlar yurdu Universitetində pedoqoji fəaliyyət göstərir. Həmin universitetin «Odlar yurdu» qəzetin və Qazax Xeyriyyə Cəmiyyətinin1996-cı ildən nəşr olunan «Dəli Kür» qəzetinin baş redaktorudur. «Mustafa Kamal Atatürk .və türkçülük», «Osmanlı sultanları» (D.Osmanlı və A.Cəfərovla birlikdə) kitablarının müəllifidir Onlarla kitabın tərtibçisi və redaktoru olmuşdur. Dövrü mətbuatda dərc olunmuş yüzlərlə məqalənin müəllifidir. 2001-ci ildən 2004-cü ilədək Atatürk Mərkəzində şöbə müdiri vəzifəsində işləmişdir. 2004-cü ildən mərkəzin müdir müavinidir.

## Dil, ədəbiyyat və mədəniyyət şöbəsi



***Şöbə müdiri***
**Pərvin İsmayıl qızı Quliyeva**

27 mart 1973-cü ildə Bakıda anadan olmuşdur. 1989-cu ildə Bakı şəhərindəki 52 sayılı orta məktəbi gümüş medalla bitirmiş və həmin ildə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin türk filologiyası şöbəsinə daxil olmuşdur. 1994-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir. 1994-1995-cü illərdə FERKO şirkətində tərcüməçi-referent kimi işləmişdir. 2001-ci ildən Azərbaycanda Atatürk Mərkəzində Dil, ədəbiyyat və mədəniyyət şöbəsinin müdiri vəzifəsində çalışır. 2004-cü ildə «Atatürkün dil siyasəti»mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. «Atatürkün dil siyasəti», «Tofiq Hacıyev. Biblioqrafiya» kitablarının və onlarla elmi məqalərin müəllifidir.

***Şöbənin elmi əməkdaşları:***
***Afət Mamayeva, Kəmalə Məmmədova.***

# İctimai-siyasi şöbə



***Şöbə müdiri***
**Samirə Rəhbər qızı Məmmədova**

1978-ci ildə Ağdam rayonunda anadan olmuşdur.. 1999-cu ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmişdir. 2004-cü ildə Bakı Slavyan Universiteti Türkologiya kafedrasının aspiranturasına daxil olmuşdur.

Çap olunmuş kitabları: "Azərbaycan türkologiyası. 1920-1938" Biblioqrafiya (kollektiv). Bakı, AzAtaM, 2002.

"Azərbaycanda Atatürk və Türkiyə Cumhuriyyəti araşdırmaları. 1941-2003. Biblioqrafiya". Bakı, AzAtaM, 2003.

***Şöbənin elmi əməkdaşları:***
***Nigar Rəhimova, Jalə Qurbanova,***
***Yaqut Əmirova.***

## Beynəlxalq əlaqələr şöbəsi



***Şöbə müdiri***
**Nazir Surxay oğlu Əhmədli**

1961-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Gabud kəndində anadan olub. Kimya elmləri namizədidir. 1979-1984-cü illərdə Naxçıvan Dövlət Universitetinin kimya-biologiya fakültəsini bitirmişdir. 1987-1990-cı illərdə AMEA-nın Qeyri-Üzvi və Fiziki kimya İnstitutunun aspiranturasında təhsil almışdır. 1987-2001-illərdə AMEA-nın Qeyri-Üzvi və Fiziki Kimya İnstitutunda kiçik elmi işçi, 1998-2000-ci illərdə "Xəbər", 1996-1998-ci illərdə "Millət" qəzetlərinin baş redaktoru olmuşdur. 2001-ci ildən AzAtaM-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiridir.

Çap olunmuş kitabları:

"Milli Məclisdən etüdlər". Bakı, Gənclik, 1996.

"Biz sözü seçdik". Bakı. Gənclik, 1997.

"Mustafa Kamal Atatürk".Bakı, AzAtaM, 2002.

"Həyat filosofu", Bakı, AzAtaM, 2003.

"Etnik dinlər və dünya dinləri". Bakı, Elm, 2003.

«Professor Sadıq Tural». (Nizami Cəfərovla birlikdə). Bakı, AzAtaM, 2005.

***Şöbənin elmi əməkdaşları:***
***Mahir Əbilov, İlahə Abdullayeva,***
***Rahid Xəlilov, Altay Cəfərov.***

## Redaksiya



***Baş redaktor***
**Dəyanət Osman oğlu**
**Osmanlı (Bayramov)**

1965-ci ildə Gürcüstanın Bolnisi rayonunun Saraclı kəndində anadan olub. 1991-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 1991-92-ci illərdə «Fəryad», «Mübarizə» və «Azərbaycan» qəzetlərində müxbir, şöbə müdiri kimi fəaliyyət göstərib. 1992-2005 ci illərdə Milli Məclisin orqanı olan «Azərbaycan» qəzetində müxbir və parlament müxbiri işləyib. 2006-cı ildən etibarən Atatürk Mərkəzinin baş redaktorudur.

1995-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1997-ci ildən isə Birliyin İdarə Heyətinin üzvüdür.

«Türkiyə Atatürkün, Azərabycan Heydər Əliyevin əsəridir» (prof. N.Cəfərovla müsahibələr), «İlham Əliyev», «Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə» (professor Nizami Cəfərovla birlikdə), «Ağ kitab», «Ni-

zami Cəfərov» və «Osmanları Sultanları» (O.Musayev və A.Cəfərovla birlikdə) kitablarının, yüzlərlə ictimai-siyasi məzmunlu publisistik məqalənin müəllifidir. Bir sıra nəşrlərin tərtibçisi və redaktoru olmuşdur.

***Redaktorlar: Flora Məmmədova,***
***Mirbəşir Cabbarov.***

# Mərkəzin nəşrlərinin ümumi siyahısı

1. Mustafa Kamal Atatürk haqqında ayrıca «Tərcümeyi-hal». 2002.
2. Mustafa Kamal Atatürk (divar təqvimi). 2002.
3. Mustafa Kamal Atatürk. (Nazir Əhmədli). 2002.
4. Azərbaycan Respublikasi ilə Türkiyə Respublıikası əlaqələrinin 10 illiyinə həsr olunmuş elmi-praktik konfrans (materiallar). 2002.
5. Atatürk ensiklopediyası (sözlük). (Hüsaməddin Qaramanlı). 2002.
6. Azərbaycan türkologoyası. (Samirə Məmmədov, Pərvin Məmmədova, Əkbər Qoşalı). 2002.
7. Heydər Əliyev. (Nizami Cəfərov). 2002.
8. Nursultan Nazarbayev. (Əkbər Qoşalı). 2002.
9. Süleyman Dəmirəl. (Ürfan Ülkü, Əli Həsənov). 2002.
10. Türkiyə Atatürkün, Azərbaycan Heydər Əliyevin əsəridir (prof. N.Cəfərovla müsahibələr). (Dəyanət Osmanlı) . 2002.
11. Azərbaycanşünaslığa giriş. (Nizami Cəfərov). 2002.
12. Həyat filosofu. (Nazir Əhmədli). 2002.
13. Ulutürklük. Qloballaşma çağında milli özünüdərketmə və geostrategiya. (Rahid Ulusel). 2002.
14. “Füyuzat jurnalı”. Biblioqrafiya. (Aydın Xəlilov). 2002.
15. Azərbaycan-Türkiyə münasibətləri (1920 -1922). Sənədlər və materiallar. (Jalə Qurbanova, Musa Piriyev). 2002.
16. Heydər Əliyev Atatürk haqqında. (Səfalı Nəzərli). 2003.
17. Atatürkün dil siyasəti. (Pərvin Məmmədova). 2003.
18. Ədəbiyyatdan siyasətə. (Nizami Cəfərov). 2003.
19. Atatürkü yaşamaq. (Akkan Suver). 2003.

20. XXİ əsrin prespektivləri. (Bəxtiyar Tuncay). 2003.

21. Heydər Əliyev və türk dünyası. (İsmayıl Vəliyev, Kamil Muxtarov). 2003.

22. Azərbaycanda Atatürk və Türk cumhuriyyəti araşdırmaları. (1941-2003-cü illər). Biblioqrafiya. (Samirə Məmmədova). 2003.

23. Ибрагим Абилов-Азербайджанский друг Ататйурка. (Анадолу Абилова). 2003.

24. Türk ordusu Bakıda. (Qılman İlkin). 2003.

25. Azərbaycanda Atatürk Mərkəzi. (buklet). (S.Nəzərli). 2004.

26. Azərbaycanda Atatürk Mərkəzi.(albom). (S.Nəzərli). 2004.

27. Turk mənşəli Azərbaycan şəxs adları sözlüyü. (Elmira Həmzəyeva). 2004.

28. Qədim türk ədəbiyyatı. (Nizami Cəfərov). 2004.

29. Anar. (Nizami Cəfərov). 2004.

30. Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə. (Nizami Cəfərov, Dəyanət Osmanlı). 2004.

31. Heydər Əliyev Atatürk haqqında. (Səfalı Nəzərli) (İngilis-cəyə tərcümə edən: İ. Abdullayeva). 2004.

32. İlham Əliyev. (Nizami Cəfərov, Dəyanət Osmanlı). 2004.

33. Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu. (Gülsərən Akalın). 2004.

34. Türk fikir tarixi haqqında mülahizələr. (Yusif Rüstəmov). 2005.

35. Некоторые проблемы социално-политический и философской мысли Турки. (Yusif Rüstəmov). 2005.

36. Seyfi Sarayın «Gülüstan» tərcüməsinin dili. (Aidə Həsənova). 2005.

37. Professor Sadıq Tural. (Nizami Cəfərov, Nazir Əhmədli). 2005.

38. Mustafa Kamal Atatürkün həyat yoldaşı Lətifə xanım. (İsmət Bozdağ). 2005.

39. Qloballaşma və türk sivilizasiyası. (Rahid Ulusel). 2005.

40. Haydar Əliyev: devlet kuruculuğu ve dil politikası. (Nizami Xudiyev). 2005.

41. Tarixin bir günü və ya bir günün tarixi. (Mehriban Ələkbərzadə). 2005.

42. Azərbaycan və azərbaycanlılar: dünən, bu gün, sabah. (Mehriban Ələkbərzadə). 2005.

43. Mustafa Kamal Atatürk -125 (divar təqvimi-2006). 2005.

44. Türkün xilaskarı. (Eldar İsmayıl). 2005.

45. Tiflis Azərbaycan teatrı. (İlham Rəhimli). 2006.

46. Orxon-yenisey abidələri və orta əsrlər türk ədəbi dili-türki. (Yadigar Əliyev). 2006.

47. Mustafa Kamal Atatürk və türkçülük. (Osman Musayev). 2006.

48. Müdrik Atatürk. Bakı, (Səfalı Nəzərli). 2006.

49. Atatürk bizimlə. (Natiq Məmmmədli). 2006.

50. Sarı yarpaqlar mövsümü. (Akkan Suver). 2006.

51.Türk xalqlları ədəbiyyatı. 5 cild. (Nizami Cəfərov). 2006.

52. Azərbaycan dilinin semantikası. (İsmayıl Məmmədov). 2006.

53. Dəli Rüzgar. (İbrahim Tərzioğlu). 2006.

54. Türk dilinin dirilmək və zənginləşdirmək yolları. (tükənəklər). (Fərhad Acazadə (Şərqli). 2006.

55. Tofiq Hacıyev. Biblioqrafiya. (Pərvin Quliyeva). 2006.

56. Böri-Qurt. (Mirəli Seyidov). 2006.

57. Atatürk haqqında hekayələr. (Akif Abbasov). 2006.

58. Türk xalqlarının rusdilli yaradıcılığında bədii üslub. (Dinarə Əliyeva). 2007.

59. Elektron imkanlar: Azərbaycan dili və türk dillərinin inteqrasiya problemlərinə konseptual yanaşma. (Firudin Əhmədov). 2007.

60. Pr. dr. Georgi Hazai. Biblioqrafiya. 2007.

61. Türkiyənin İstiqlal müharibəsində Azərbaycan türkləri. (Abdulhamit Avşar). 2007.

62. Aydınların gözüyle Azerbaycan. Ziyalılarla Kültur gezileri. (Abdulhamit Avşar). 2007.

63. Türk yazıçıları Bakıda. (Qılman İlkin). 2007.

64. Yapon dilində fellərin leksik-qrammatik kateqoryalarınınn bəzi xusisiyyətləri. (Oqtay Cəlilbəyli). 2007.

65. Türklüyümüz. (Həsən Əziz oğlu Həsənov). 2007.

66. Türk olmaq. (Namık Kamal Zeybek). 2007.

67. Türk əsilli ruslar. (Minəxanım Təkləli). 2007.

68. Böyük Türk. ( Akif Abbasov). 2007.

69. Atatürk. (Akif Abbasov). 2007.

70. Azərbaycan dilinin Şimal və Cənub təzahürləri. (Ülviyyə Qasımlı). 2007

71. Şumer dastanları. (Arif Əliyev). 2008.

72. Atatürkün Azərbaycan siyasəti. (prof. dr. Nizami Cəfərov, prof. dr. Mehmet Akif Tural). 2008.

73. Osmanlı Sultanları. (Osman Musayev, Dəyanət Osmanlı, Altay Cəfərov). 2008.

74. Atatürk Mərkəzi. (Osman Musayev, Dəyanət Osmanlı, Altay Cəfərov). 2008.

75. Bülleten. (24 say, 2001-2007)

# MÜNDƏRİCAT

Azərbaycanda Atatürk Mərkəzi .......................................9
İntellektual elm, mədəniyyət təşkilatı ................................13
Bakıda Atatürk evi........................................................18
Atatürk irsi, Türk dünyasının tarixi və
mədəniyyəti yayınlarda ..................................................25
Beynəlxalq fəaliyyətin konturları ....................................28
Azərbaycan Respublikası Prezidentinin
Sərəncamı – Azərbaycanda Atatürk
Mərkəzinin yaradılması haqqında ...................................33
Azərbaycan Respublikası Prezidentinin
Sərəncamı.....................................................................35
Azərbaycanda Atatürk Mərkəzinin əsasnaməsi...............36
I Ümumi müddəalar .......................................................36
II Mərkəzin əsas vəzifələri və funksiyaları ......................37
Azərbaycanda Atatürk Mərkəzinin
təntənəli açılış mərasimi.................................................40

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyevin nitqi....................................................42
Azərbaycanda Atatürk Mərkəzinin
müdiri Nizami Cəfərovun çıxışı......................................46
Türkiyə Cümhuriyyətinin dövlət
naziri Bəşir Atalayın çıxışı ............................................49
Atatürk Yüksək Qrumunun başqanı,
professor Sadıq Turalın çıxışı ........................................46
Mərkəzin strukturu........................................................65
Müdir müavini..............................................................67
Dil, ədəbiyyat və mədəniyyət şöbəsi................................68
İctimai-siyasi şöbə .........................................................69
Beynəlxalq əlaqələr şöbəsi..............................................70
Redaksiya ......................................................................72
Mərkəzin nəşrəlrinin ümumi siyahısı...............................74

***Osman Musayev***
***Dəyanət Osmanlı***
***Altay Cəfərov***

# Atatürk mərkəzi
## sorğu məlumat kitabı

Nəşriyyatın direktoru Eldar Əliyev
Mətbəənin direktoru Səhraf Mustafayev
Kompüter dizaynı Aynurə Nəsirova

---

Yığılmağa verilib 08.01.2008. Çapa imzalanıb 28.01.2008.
Formatı 70x100 $^{1}/_{32}$. F.ç.v 2,5. Ş.ç.v 3,23. Sifariş № 064
Sayı 500 nüsxə. Qiyməti müqavilə ilə

---

*“Çaşıoğlu” mətbəəsi*
*Bakı ş. M.Müşfiq küç. 2a*